Azərbaycan Aqrar Elmi 4 2019 Аграрная Наука Азербайджана

UOT 636.082

# TƏMİR CAVANLARININ YETİŞDİRİLMƏ TEXNOLOGİYASI

**M.H.HACIYEV, F.M.MİRZƏYEV, E.H.ƏLİYEVA**
**AKTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu**

*Məqalədə gənc ördəklərin müxtəlif şərtlərdə böyüdülməsi və saxlanmasının texnoloji prosesləri, ana ördək sürüsünün ana üsulu ilə təchiz edilməsi yolları ətraflı təsvir edilmişdir. Məqalədə, ana sürülərdə ördəklərin seçilməsi və seçilməsinin dəqiq tarixi göstərilir. Damazlıq sürünün ölçüsü və quruluşu ətraflı təsvir edilmişdir.*

***Açar sözlər:*** *ördəkçilik, muskus ördəkləri, vəhşi ördəklər, yetişdirmə, məhsuldarlıq, piylənmə, ət çıxımı,* ***,*** *yumurta məhsuldarlığı*

Respublikamızda ördəkçilik sahəsi quşçuluğun ən geridə qalmış sahəsi olmaqla, əsasən fərdi təsərrüfatlarda və ailə-kəndli fermer təsərrüfatlarında saxlanmaqdadır. Bu sahə üzrə iri təsərrüfatlar yoxdur və istehsal prosesi demək olar ki, ekstensiv şəraitdə aparılır. Əhalinin ördək ətinə olan münasibəti də birmənalı deyil. Belə ki, respublikanın bir sıra regionlarında, xüsusən də, dağlıq ərazilərdə, ördək əti daha çox istifadə olunur, digər ərazilərdə isə, xüsusən də, aran və isti iqlimə malik ərazilərdə isə daha az istifadə olunur.Bu baxımdan ördəkçiliyin sənaye əsasında inkişaf etdirilməsində çox ciddi problemlər mövcud olmaqdadır. Doğrudur respublikamızda ördəklərin bir neçə cins və populyasiyası saxlanmaqdadır, amma yuxarıda deyildiyi kimi, toyuqçuluğa nisbətən ördəkçiliyin inkişaf etdirilməsində ciddi problemlər qalmaqdadır.

Ördəklərin yaranma tarixi çox qədim zamanlara təsadüf edir. Belə ki, müasir ördək cinslərinin böyük hissəsi vəhşi ördəklərdən (Anas platynhunchos) yaranmışdır ki, həmin vəhşi ğrdəklər hal-hazırda da Avropada, Asiyada və Şimali Amerikada geniş yayılmışlar. Onların canlı kütləsi 1.5 kq təşkil etməklə, erkəkləri çox gözəl tük örtüyünə malikdirlər, belə ki, onların başı və boyunun qabaq hissəsi yaşıl rəngə, çinədan hissəsi şabalıdı rəngdə, kürək hissəsi qonur-şabalıdı, qanadları parlaq mavi, quyruğun örtük lələkləri isə qara-yaşıl rəngdə olurlar. Bu ördəklər köçəri quşlardır.

Vəhşi ördəklər çox tez əhliləşirlər, belə ki, 3-4 ay ərzində onları əhliləşdirib ev quşuna çevirmək olur və uçub getmirlər. Yerli əhali çox vaxt bu ördəklərin yumurtalarını toplayır, ya kürt yatan quşların altına qoyur və ya inkubatora qoyaraq artırırlar. Bu quşları ev ördəkləri ilə birlikdə yetişdirirlər və onların uçub getməməsi üçün qanadlarını kəsirlər. Ev ördəklərinə nisbətən vəhşi ördəklər (bizdə onlara qaşqaldaq deyirlər) su tutumlarında olan təbii yemlərdən daha yaxşı istifadə edirlər, bu baxımdan onların əti daha uzuz başa gəlir.

**Ördəklərin bioloji xüsusiyyətləri.** Qeyd etmək lazımdır ki, ördək cinslərinin böyük bir hissəsi ördək əti istehsalı üçün yetişdirilir, amma bir sıra cinslər mövcuddur ki, onlar sırf yumurtalıq istiqamətdə yetişdirilməkdədir.

Dünyanın bir çox ölkələrində bu məqsədlə (yumurtalıq istiqamətdə) mənşəyi Çindən olan ördəklərdən istifadə olunur, həmin ördəklər yüksək boyatma enerjisinə, yaxşı ətlilik keyfiyyətinə malik olmaqla, çəmdəyinin rəngi əsasən ağ olur. Pekin ördəklərinin başları uzunsov olub, alınları geniş və az miqdarda çıxıntılı olurlar. Boyunları, ətlik cinslərdə yoğun və ümumistifadəlik cinslərdə isə orta yoğunluqda olurlar. Dimdiklərinin rəngi tünd boz, yumurta vermə zamanı isə açıq rəngdə olur.

Dünyada ördək əti istehsalı yaxın vaxtlaradək, respublikamızda olduğu kimi ekstensiv üsulla həyata keçirilirdi. Ördəklər əsasən, təbii yemlərdən istifadə etmək məqsədilə, ipi su tutumlarına malik təsərrüfatlarda yetişdirilirdi ki, bununla da konsentrat yemlərə 30-35 % qənaət olunurdu. Ördək əti istehsalında ekstensiv üsuldan istifadə olunması, mğvsümi xarakter daşımaqla, iqlim şəraitindən asılı olur ki, bu da ördəklərin bioloji xüsusiyyətlərindən, (tezyetişkənlik və yüksək boyatma sürəti ) tam istifadə etməyə imkan vermir.

Ördəklərin intensiv üsulla yetişdirilməsi zamanı 45-50 günlük yaşında ördək balalarının canlı kütləsi 3.0-3.5 kq təşkil etməklə, həmin dövr ərzində bir sutkalıq yaşında olan canlı kütləsini 60 dəfə artıra bilirlər. Ördək balaları 1 kq canlı kütlə artımına 2.5-3.0 kq qarışıq yem məsarif edirlər.

Ördəklərdə ilk yumurtlama tsiklindən sonra tükdəyişmə baş verir və təbii halda 3-4 ay davam edir, amma bu müddəti süni yolla azaltmaq mümkündür. Tükdəyişmə sona çatdıqdan sonra ördəklərdə ikinci tsikl yumurtlama başlayır ki, bu da 7-9 ay təşkil edir. İki yumurtlama tsikli ərzində bir yumurtlar ördəkdən 200-230 yumurta, ümumi çəkisi 270-310 kq olmqla, 130-160 ördək balası alınır.

Ördəklərin qiymətli bioloji xüsusiyyətlərindən biri odur ki, onları istənilən iqlim şəraitində yetişdirmək mümkündür. Onlar həm döşəmə şəraitində, həm də qəfəsədə saxlanma şəraitində yüksək məhsuldarlığını saxlaya bilirlər. Qeyd etmək lazımdır ki, ördəkləri intensiv üsulla yetişdirdikdə, quru yemləmə tipi tətbiq olunur, bütün texnoloji proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılmasına imkan yaranır.

**Ana sürünün komplektləşdirilməsi üçün təmir cavanlarının yetişdirilmə texnologiyası.** Müasir ördəkçilikdə ilboyu bərabər miqdarda ördək əti istehsal olunmasını təmin etmək üçün ana sürünü ildə bir neçə dəfə komplektləşdirmək lazım gəlir.Bu məqsədlə ana sürünün ölçüsü, həmçinin, təmir cavanlarının baş sayı, planlaşdırılan ət istehsalının miqdarından, quşun məhsuldarlıq göstəricisindən və müəssisənin texnoloji imkanlarından bilavasitə asılıdır. İlk mərhələdə təmir cavanlarının bəslənmə texnologiyası, ördək cücələrinin ətlik məqsədlə yetişdirmə texnologiyasından praktik olaraq bir o qədər də fərqlənmir. Bu zaman yetişdirməyə mütləq yaxşı inkişaf etmiş, hərəkətli və sağlam cücələr seçilir.

Yetişdirmə dövründə ilk damazlıq seçmə 7-8 həftəlik yaşında həyata keçirilir. Bu zaman quşların eksteryer göstəricilərinə, inkişafına və tüklənmənin vəziyyətinə diqqət yetirilir. Ördək cücələrində, bu dövrdə, I və II qayda çalma lələkləri yaxşı inkişaf etmiş olmalıdır. Əgər cücələr cinsiyyətinə görə ayrılıqda yetişdiriləcəklərsə, o zaman bu dövrdə cinsiyyətinə görə xoruz vəfərələr ayrılırlar. Cinsiyyətinə görə ayrılma ya onların səsinə görə aparılır (ələ götürəndə dişi ördəklər spesefik səs çıxarır, erkəklər isə fısıldayırlar) və ya kloakaya baxmaq yolu ilə aparılır. Bundan başqa, sonralar erkək ördəklərin quyruğunun sonunda bir neçə lələk geriyə qatlanmış olur.

Təmir cavanlarının ikinci damazlıq seçilməsi, cavan quşların yaşlı quşlar saxlanan binaya köçürülməsi zamanı, 21-25 həftəlik yaş dövründə aparılır. Seçmə və çıxdaş zamanı, mütləq dişi və erkək ördəklərin sayının cins nisbətinə xüsusi diqqət yetirilməlidir. Bu nisbətin pekin ördəklərində 1 : 3.5-4.0, muskus ördəklərində isə 1 : 4.5-5.0 olması məsləhət görülür.

Ana sürünün komplektləşdirilməsi əsasən, yumurtalamaya 1.5-2.0 ay qalmış həyata keçirilməlidir. Əgər komplektləşdirmə gecikdirilərsə, stress səbəbindən yumurta məhsuldarlığı aşağı düşə bilər.

Təmir cavanlarının yetişdirilməsi zamanı, xüsusən də, ilk dövrlərdə, istilik rejiminə ciddi nəzarət olunmalıdır. Cücələr yerləşən zonalarda istilik sutkada 2 dəfə ölçülməlidir Nisbi nəmliyin 65-70 % səviyyəsində saxlanması məsləhət görülür. Gələcəkdə yaşlı ördəklərin məhsuldarlıq göstəriciləri, təmir cavanlarının yaxşı inkişafından çox asılıdır, buna isə binada düzgün işıq rejiminin tətbiq edilməsi güclü təsir göstərir. Bir sıra tədqiqatçılar aşağıdakı işıq rejimindən istifadə olunmasını məsləhət görürlər. Belə ki,birinci həftədə işığın daim yanmasını, ikinci həftədə işıqlanmanın 18 saat, 3-cü həftədən 7-ci həftəyədək 10 saat səviyyəsində saxlanmasını, sonralar isə işıqlı günün səviyyəsinin, tədricən 8 saata endirilməsini və 180 günlük yaşınadək bu səviyyədə saxlanmasını məqsədə müvafiq hesab edirlər. Bu zaman işıqlanma intensivliyi 15-20 lüks arasında olmalıdır.

Təmir cavanlarının vaxtında inkişafına nail olunmasına quşların yemləndirilmə səviyyəsinin təsiri böyükdür. Müasir ördək krossları ilə, uzun müddət, canlı kütləsinin və cəmdəyin çəkisinin yüksəldilməsi istiqamətində damazlıq işi həyata keçirilmişdir. Amma nəzərə almaq lazımdır ki, bununla yanaşı həm də piylənmə göstəricisi də inkişaf etmişdir, belə ki,bu əlamətlər arasında yüksək səviyyədə müsbət koorelyativ əlaqə mövcuddur (r=0.8-0.9). Bununla yanaşı məlumdur ki, təmir cavanlarının piylənməsi ördəklərin yumurta məhsuldarlığına və erkək ördəklərin çoxalma qabiliyyətinə mənfi təsir göstərir. Bu problemin həll olunması üçün təmir cavanlarının yetişdirilməsində məhdudlaşdırılmış yemləmə tətbiq olunur. Məhdudlaşdırılmış yemləmənin bir neçə üsulu işlənib hazırlanmışdır. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, ya quşların sutkalıq yem norması məhdudlaşdırılır və ya həftədə bir gün "aclıq"təşkil edilir, yəni yem verilmir. Təmir cavanlarının yemləndirilməsi 4-həftəlik yaşından başlayaraq məhdudlaşdırılır.Amma bununla yanaşı diqqət yetirmək lazımdır ki, ördək balaları inkişafdan qalmasınlar. Bu məqsədlə onlar mütamadi olaraq çəkilirlər və normativ göstəricilərlə müqaisə olunurlar. Yaş dövrlərindən asılı olaraq ördək balalarının nümunəvi canlı kütləsi aşağıda göstərilmişdir:

**Cədvəl 1**
**Təmir cavanlarının yaşından asılı olaraq nümunəvi canlı kütləsi, qr**

| Cinsiyyəti | Canlı kütləsi, qr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Quşların yaşı, həftələrlə | | | | | | | |
| | 4 | 6 | 7 | 9 | 13 | 17 | 21 | 25 |
| Dişilər | 1400 | 1500 | 1750 | 1850 | 2350 | 2600 | 3000 | 3400 |
| Erkəklər | 1600 | 1700 | 1950 | 2100 | 2500 | 2900 | 3300 | 3700 |

Ana sürünün təmiri üçün nəzərdə tutulmuş ördək balaları, əsasən 9 aylıq yaşından yuxarı olan yumurtlar-ördəklərin yumurtalarından inkubasiya olunmalıdır.Daha yaxşı olar ki, bu məqsədlə yaşlı ördəklərin yumurtaları inkubasiya olunsun. Əgər pekin ördəklərinin təmir cavanları ilk 2 ayda, cinsiyyətinə görə ayrılmadan yetişdirilirsə, o zaman 180 günlük yaşında hər 1000 baş ana ördək yetişdirilməsi üçün bəslənməyə 4000 baş sutkalıq cücələr götürülməlidir, bunların 3000 başı ana xətti və 1000 başı ata xətti təşkil etməlidir. Aşağıdakı cədvəldə ana sürünün komplektləşdirilmə norması göstərilmişdir.

**Cədvəl 2**

**Damazlıq sürünün komplektləşdirilmə norması, min başla**

| Qruplar | anğı c baş | Saxlanmışdır | | Çıxdaş olunmuşdur | | Yuxarı yaş qrupuna keçirilmişdir |
|---|---|---|---|---|---|---|
| | | baş | % | baş | % | |
| 1-7 həftəlikdə cəmi başcayı | 4000 | 3800 | 95.0 | 2540 | 63.5 | 1260 |
| O cümlədən ana xəttindən : | 3000 | 2850 | 95.0 | 1890 | 63.0 | 960 |
| Dişi ördəklər | 1500 | 1425 | 95.0 | 465 | 31.0 | 960 |
| Erkəklər | 1500 | 1425 | 95.0 | 1425 | 100.0 | - |
| Ata xəttindən : | 1000 | 950 | 95.0 | 650 | 65.0 | 300 |
| Dişilər | 500 | 475 | 95.0 | 475 | 100.0 | - |
| Erkəklər | 500 | 475 | 95.0 | 175 | 35.0 | 300 |
| 8-21 həftəlikdə cəmi baş sayı | 1260 | 1222 | 97.0 | 122 | 9.7 | 1100 |
| O cümlədən : | | | | | | |
| dişilər | 960 | 931 | 97.0 | 81 | 8.4 | 850 |
| Erkəklər | 300 | 291 | 97.0 | 41 | 13.7 | 250 |
| 22-28 həftəlikdə qalıq sayı | 1100 | 1061 | 96.5 | 61 | 5.5 | 1000 |
| O cümlədən : | | | | | | |
| dişilər | 850 | 820 | 96.5 | 20 | 2.3 | 800 |
| erkəklər | 250 | 241 | 96.5 | 41 | 16.4 | 200 |

Əgər 2 aylıq yaşında cinsiyyətinə görə ayrı (xoruz və fərələr ayrılıqda) yetişdirilmə aparılarsa, o zaman, sutkalıq yaşında, ana xəttin dişilərini və ata xəttin erkəklərini iki dəfə az götürmək lazım gəlir. Bununla da yeni komplektləşdirilmiş sürüdə 800 baş dişi ördəklər və 200 baş erkək ördəklər saxlanılır, yəni erkək və dişilərin nisbəti 1 : 4 təşkil etməlidir. Damazlıq sürünün bu nisbətdə komplektləşdirilməsi, gələcəkdə yüksək damazlıq yumurta istehsalı üçün yaxşı zəmin yaratmış olar.

## ƏDƏBİYYAT

1.Хабирова С., Гадиев Р. Продуктивные качества утят породы индийские бегуны и их помесей /С. Хабирова, Р. Гадиев// Птицеводство. – 2009. №10. – С. 13−14. 2. Соколов Л.А., Махонина В.Н., Коренев В.В. Мясо уток и некоторые характеристики его качества /Л.А. Соколов, Махонина Л.А., В.В. Коренев// Птица и птицепродукты. – 2006. − №6. – С. 51−52. 3. Седых Т.А. Продуктивные и мясные качества утят при различной плотности посадки и сроках выращивания: автореф. дис. канд. с.-х. наук /Т.А. Седых – Уфа, 2008 − 25 с.4. Седых, Т.А. Влияние плотности посадки на естественную резистентность утят /Т.А. Седых, Е.А. Карюк// Роль молодых ученых в реализации национального проекта «Развитие АПК». Сборник материалов Международной научно-практической конференции. – М: ФГОУ ВПО МГАУ, 2007. – С. 306-307. 5.Ройтер Я.С. Гуси и утки. Руководство по разведению и содержанию /Я.С. Ройтер// АСТ, Аквариум – Принт., 2011.– 448 с. 6. Ройтер Я.С. Селекция с-х птицы и ее будущее в России /Я.С. Ройтер// Птицеводство. – 2012 − №12. – С. 4−5

### Технология выращивания ремонтного молодняка

**М.Г.Гаджыев, Ф.М.Мирзоев, Э.Г.Алиева**

В статье подробно излагаются технологические процессы проведения выращивания и содержании ремонтного молодняка уток в разных условиях, а также указываются пути укомплектования родительского стада уток. В статье указаны точные сроки проведения племенного отбора и подбора уток на родительских стадах. Подробно излагается размер и структура племенного стада.

***Ключевые слова:*** *утководство, мускусные утки, дикие утки, выращивание, продуктивность,ожирение, выход мяса, яичная продуктивность*

### Technology of growıng rearıng flocks

**M.H.Haciyev, F.M. Mirzoyev, E.G. Aliyeva**

The article sets out in detail the technological processes for the cultivation and maintenance of young rearing flocks of ducks in different conditions, and also indicates the ways of staffing the parental herd of ducks. The article indicates the exact dates for breeding and selection of ducks in parenting herds. The size and structure of the breeding herd are described in detail.

***Keywords:*** *duck breeding, muskovy ducks, wild ducks, growing, productivity, adiposity, slaughter meat, egg productivity*